# "Həyat təkcə ailə qurmaqdan ibarət deyil"

## Modelyer Rəfiqə Hacılı deyir ki, insan istedadı ilə müəyyən uğur qazana bilər, amma təhsili yoxdursa, mütləq axsayacaq

**Onun məqsədi Azərbaycanı moda ölkəsi kimi tanıtmaqdır. Pillə-pillə öz məqsədinə doğru irəliləyir. Az müddətdir Fransada olmasına baxmayaraq, orada keçirilən moda yarışmasında ölkəmizi təmsil edib və qalib olub.**

**Müsahibimiz gənc modelyer Rəfiqə Hacılıdır. Rəfiqə Fransada IFA Paris Universitetində moda üzrə təhsil alır.**

Aygün ƏZİZ





### "HƏR YERƏ ŞƏKİL ÇƏKİRDİM"

Bakıda anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Rəssamlıq Akademiyasında təhsil alıb. Həmsöhbətimiz deyir ki, hələ 3 yaşından ailəsi onun istedadının fərqinə varıb və rəsm dərnəyinə yazdırıb: "Özümü xatırlayandan rəsm çəkirəm. Artıq 3 yaşımda ailəm istedadımın olduğunun fərqində idi. Çünki hər yerə - evin divarları, stol, stula şəkil çəkirdim. Sonra məni rəsm dərnəklərinə qoydular. Rəsm sahəsində müsabiqələrdə iştirak edir və yer tuturdum. Azərbaycanda Rəssamlıq Akademiyasında qrafik dizaynı oxuyurdum. Amma moda üzrə mütəxəssis olmağı qarşıma məqsəd qoymuşdum. Düşündüm ki, Azərbaycanda moda üzrə yaxşı təhsil verən yer yoxdur. Ölkəmiz moda sənayesində hələ öz sözünü deyə bilməyib. Bu səbəbdən xaricə getmək qərarına gəldim. Azərbaycanda modanı inkişaf etdirmək, öz töhfəmi vermək istəyirəm. Dünyada 4 moda mərkəzi var: Paris, Nyu-York, Milan, London. Mən də Parisi seçdim".

### İSTEDAD VƏ TƏHSİL

Rəfiqə deyir ki, hansı sahə olursa olsun, insan öz sahəsinin ustadı olmalıdır. Onun sözlərinə görə, əgər bu sahədə uğur qazanmaq istəyirsənsə, mütləq istedadla yanaşı, təhsilin də olmalıdır: "Hazırda bütün gücümü təhsil almağa yönəltmişəm. Hazırkı məqsədim mükəmməl təhsil almaqdır. Hesab edirəm ki, insan istedadı ilə müəyyən uğur qazana bilər, amma təhsili yoxdursa, mütləq axsayacaq".

Rəfiqənin sözlərinə görə, hələ Azərbaycanda olanda rəsmləri və dizaynları ilə tanınmağa başlayıb. 21 yaşlı gənc modelyer ketlərin (idman ayaqqabısı-müəl.) üstünə rəsmlər çəkməklə işə başlayıb: "Ketlərin üzərinə parça üçün xüsusi boya ilə rəsmlər çəkirdim. Sərgilərdə işlərim bəyənilirdi. Müsabiqələrdə iştirak edir, müəyyən yerlər tuturdum. Tək məqsədim onlayn sayt açıb bu ketlərin satışını təşkil etmək idi".

### "FRANSADA QALİB OLDUM"

Yuxarıda da qeyd etdiyimiz kimi, gənc modelyer Fransada moda yarışmasında qalib olub. Üstəlik, həmyerlimizin əl işləri Fransada muzeydə sərgilənəcək: "Fransanın Mədəniyyət və Kommunikasiya Nazirliyi, "Barbie" şirkəti və "Les Arts Decoratifs" muzeyinin birgə təşkil etdiyi yarışmaya Barbi kuklaları üçün hazırladığım geyimlə qatıldım və seçilən 12 qalibdən biri də mən oldum. Barbi kuklaları üçün hazırladığım geyim "Les Arts Decoratifs" muzeyində nümayiş olunacaq. Mənim hazırladığım Barbi kuklası bizim institutdan seçilən yeganə kukla idi. Hətta mən qalib olanda institutumuzun rəsmi saytında məlumat getmişdi ki, azərbaycanlı qız qalib gəlib. Mən həmişə təəssüflənirəm ki, niyə moda ölkələri siyahısında Azərbaycan olmasın. Ölkənin tanıdılması üçün mədəniyyət çox önəmlidir. Gürcüstan çox gözəl ölkədir. Bizim resurslarımız onlardan daha çoxdur. Buna baxmayaraq, mən təəssüflənirəm ki, Gürcüstanda moda daha çox inkişaf edib. Gürcü dizaynerin uğurları sayəsində Gürcüstan moda ölkəsi kimi tanınmağa başladı. Mən çox istərdim ki, Azərbaycandan da belə bir dizayner çıxsın. O da belə bir uğurlu addım atsın. Bizi də zövqlü, modanı bilən insanlar kimi tanısınlar".




### AZƏRBAYCAN QADINI GÜCLÜDÜR...

Müsahibimiz sonda gələcək planlarından da danışdı. Deyir ki, əsas məqsədi evdar Azərbaycan qadınlarına örnək ola bilməkdir: "Parisdə bakalavr pilləsini bitirdikdən sonra, magistraturanı Milanda oxumaq, təcrübəmi Nyu-Yorkda keçmək istəyirəm. İstərdim Azərbaycan qadınları üçün motivasiya olum. Bəzi qadınlarımıza bildirim ki, həyat təkcə ailə qurmaqdan ibarət deyil. Azərbaycan qadını güclüdür və Azərbaycan qadını daha çox şeyə qadirdir. Ən böyük arzum qadınlara nümunə olmaqdır. Azərbaycan qadını da baxıb desin ki, əgər Rəfiqə bunu etdisə, mən niyə bacarmayım? İnsan məqsədlərinin arxasınca getməli və ona çatmaq üçün əlindən gələni etməlidir. Qadın istərsə, imkansız görünəni belə bacara bilər".

